**Təhsil sahəsindəki bərabərsizliyin tədqiqat, təcrübə və təhsil siyasəti vasitəsilə aradan qaldırılması.**

**VII ADA Beynəlxalq Təhsil Konfransı**

**1-2 iyul 2024-cü il**

**Məqalələrin qəbulu üçün**

**Elan**

ADA Universiteti Elm və Təhsil Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində 2024-cü il VII Beynəlxalq Təhsil Konfransını açıq elan edir.

VII ADA Beynəlxalq Təhsil Konfransı insan kapitalının artırılması, sosial mobillik və rifahın yüksəldilməsi, iqtisadi tərəqqi, ölkənin ümumi inkişafı və qlobal rəqabət qabiliyyətinin təkmilləşdirilməsi kimi mühüm məsələləri həll etməyi hədəfləyən Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının 10 illik yubileyinə təsadüf edir.

Onilliklər boyu davam edən təhsil islahatlarına baxmayaraq, milli və beynəlxalq qiymətləndirmələrin nəticələri onu göstərir ki, keyfiyyətli təhsil imkanlarına malik olmaq, akademik nailiyyətlər əldə etmək baxımından öyrənənlər arasındakı fərqlər getdikcə artmaqdadır. Tendensiya halını almış bu bərabərsizlik ölkənin təhsil sistemində sosial və iqtisadi təbəqələşməyə, kənd, şəhər fərqlərinə, cinsi ayrı-seçkiliyə, tədris dili və sağlamlıq vəziyyətinə görə təhsilalanlar arasında bölünmələrə gətirib çıxardır. Bunun qarşısını necə almaq olar? Təhsil siyasətində hansı dəyişikliklər edilməlidir ki, bərabər imkanların yaradılması təmin edilsin? Elmi araşdırmalar və tədqiqatlar, qabaqcıl beynəlxalq təcrübələr bu barədə nələr deyir, onları Azərbaycan təhsil sisteminə necə inteqrasiya edə bilərik? Məhz bu suallara cavab tapmaq üçün VII ADA Beynəlxalq Təhsil Konfransı alimləri, siyasətçiləri, müstəqil tədqiqatçıları, təhsil üzrə ekspertləri və tələbələri bir araya yığmağı planlaşdırır. Konfransda təhsildə ədalət və bərabərlik sahəsindəki qeyri-müəyyənlikləri, ziddiyyətli məqamları araşdıran elmi tədqiqatlara önəm veriləcəkdir. Konfransımızın əsas məqsədi həm fərdi, həm də ictimai rifaha əsaslanan formal və ya ömürboyu öyrənmə təhsil səviyyəsində bərabərsizliyi aradan qaldıran, o cümlədən bərabərliyi və ədaləti təşviq edən siyasət, eləcə də paradiqmaların yaradılmasını tövsiyə edə bilən elmi

araşdırmaların və tədqiqatların dəyərləndirilməsidir. VII ADA Beynəlxalq Təhsil Konfransı bu məqsədlərə çatmaq üçün aşağıdakı konfrans mövzuları ilə bağlı təqdimatlar qəbul edir:

- Öyrətmə və öyrənmə;
- Liderlik və təhsil müəssisələri;
- Qiymətləndirmə və dəyərləndirmə;
- Ömürboyu öyrənmə və inkişaf;
- Tədris resursları və infrastruktur;
- Peşə təhsili;
- Bütün öyrənənlər üçün inklüziv təhsil;
- Təhsil siyasəti, tədqiqat və maliyyə.

Konfransda əhatəli panel müzakirələrinə, tədqiqat nəticələrinin təqdimatına, həmçinin təhsildə yaranan fikir ayrılıqlarına toxunan, eləcə də bütün tələbələrin bərabərliyi, rifahını təşviq etmək potensialına malik siyasət və təcrübələrə əsaslanan poster sessiyalarına yer veriləcək. Konfransda çıxış edən müəlliflər sertifikatla təltif olunacaq və tam məqalələrini konfrans materiallarında dərc etmək imkanı əldə edəcəklər.

**Önəmli tarixlər:**

- Abstrakt tədqiqat işinin təqdim edilməsi üçün son tarix: 1 aprel 2024-cü il
- Abstrakt tədqiqat işi qəbul edilmiş namizədlərin məlumatlandırılması: 30 aprel 2024-cü il
- Konfrans üçün qeydiyyatın açılması: 3 aprel 2024-cü il
- Konfransa qeydiyyat üçün son tarix: 29 iyun 2024-cü il
- Konfrans öncəsi seminarın tarixi: 28 iyun 2024-cü il
- Konfransın keçirilmə tarixi: 1-2 iyul 2024-cü il

**Məqalələrin təqdim edilmə meyarları:**

Tədqiqat təklifləri (abstraktlar) **Azərbaycan, ingilis və rus** dillərində qəbul edilir. Abstrakt **maksimum 500** sözdən və 3 açar sözdən ibarət olmalıdır.

•Abstraktınızı **1 aprel 2024-cü il** tarixinədək ADA Təhsil Fakültəsinin sel@ada.edu.az mail ünvanına göndərin. İngilis və Azərbaycan dili versiyalarında tezislər üçün aşağıdakı hiperlinklərdən istifadə edin. * Əgər siz rus dilində göndərirsinizsə, ingilis dilində referat təqdimat formasından istifadə edin.

•Aşağıdakı linklərdə verilmiş ADA Universitetinin təqdimat qaydalarına istinad edin.

•Elektron məktubun mövzu hissəsinə "ADA 2024 Təhsil konfransı üçün Abstrakt – adınız"ı daxil edin.

FORM-EDU abstract 2024-ENGLISH VERSION

FORM-EDU abstract 2024 AZERBAIJANI VERSION

**Konfransa qeydiyyat və ödənişlər**

Tezisinizin təqdim edilməsi sizi avtomatik olaraq konfransda qeydiyyatdan keçirmir. Konfransda iştirak etməyi planlaşdıran hər kəs qeydiyyat prosesini tamamlamalıdır. VII ADA Beynəlxalq Təhsil Konfransına onlayn qeydiyyat **3 aprel 2024-cü il** tarixindən ADA Universiteti Konfransının internet səhifəsində http://edcon.ada.edu.az/ aparılacaq.

Qeydiyyat haqqı Azərbaycan vətəndaşları üçün **65 AZN**, əcnəbilər üçün **90 AZN** təşkil edir. Ödənişə daxildir: Konfrans öncəsi seminarlara qəbul və konfransqabağı iştirak sertifikatı ilə mükafatlandırma, konfrans sessiyalarında, plenar iclaslarda iştirak, gündəlik yemək fasilələri, konfrans kitabçası və s.

Ödəniş **3 aprel 2024-cü il** tarixində ADA Universiteti Konfransının internet səhifəsində aktivləşdiriləcək və https://online.ada.edu.az/payment/ saytından onlayn şəkildə həyata keçirilə bilər.

Köçürmə bank yolu ilə ödəniş ADA Universitetinin AZN bank hesabına edilə bilər. Bank hesabı ilə əlaqədar məlumatı əlavədə tapa bilərsiniz.

**Əlaqə**

Suallarınızı ADA Universiteti Təhsil Fakültəsinə sel@ada.edu.az mail ünvanına yönəldə, və ya 437-32-35 (417), (+994)50 257-32-35 nömrəsi ilə əlaqə saxlayaraq ünvanlaya bilərsiniz.